# Onu Allah verdi...

## Bənzərsiz şair Allahverdi Məmmədli bənzərsiz istedad sahibi idi



*İdris Şükürlü*

**Onun barəsində 80-ci illərdə eşitmişdim. Daha dəqiq desək, tələbə yoldaşı və dostu, əyilməz xarakterindən maraqla danışan, bir neçə publisistik kitabın müəllifi, "Xalq qəzeti"nin veteran əməkdaşı və qəzetin mətbəxində "Bişən" istedadlı tələbə yoldaşı və dostu İsaq Əmənullayev Allahverdi Əbdül oğlu Məmmədlinin ruh qardaşı idi,- desək yanılmarıq. Allahverdi çətin, lakin dəyərli həyat yolu keçmiş, uşaqlıq illəri 1941-1945-ci illərə düşmüşdü. Atasının repressiya məruz qalması, 1951-ci ildə həbs edilərək Qazaxıstanın Cambul vilayətinə sürgünə göndərilməsi, bir il sonra bütün Zavandlılar kimi Allahverdigilin ailəsinin zorla Biləsuvara-Yuxarı Əmənkəndə köçürülməsi gənc Allahverdinin yaddaşında silinməz izlər buraxmış, onun duyğular aləmini tarıma çəkmiş, gələcəkdə özünəməxsus qələm sahibi, şair-publisist olmağa hazılamışdı.**

1963-cü ildə səkkizinci sinfi bitirmiş, Lənkəran Pedoqoji məktəbində oxumuş, təyinatla müəllim işləməyə göndərilmişdi. Əvvəl müəllim işləmiş,sonra isə direktor müavini təyin edilmişdi. Ordu sıralarında xidmət etdikdən sonra Azərbaycanın ali məktəblərinin flaqmanı olan Azərbaycan Dövlət Universitetinin (hazırdı BDU) jurnalistika fakyültəsinə daxil olmuş, oranı uğurla bildirmişdir, onu da deyim ki, universitetin hüquq , şərqşünaslıq, jurnalistika fakultəsinə daxil olmaq, hər oğulun işi deyildi.1975-ci ildən başlayaraq müxtəlif vəzifələrdə işləmiş, "Şəfqət" qəzetində baş redaktor müavini, "Ulduz" jurnalında məsul katib olmuş, bədii ədəbiyyatın təbliği bürosunda işləmişdi.Bakının cənub zonasının ədəbi mühitində fəal iştirak etmişdi, müxtəlif məclislərin iştirakçısı, sözünü kəsə deyən adam idi.

Mən Allahverdi ilə "Şəfqət" qəzetinin baş redaktor müavini işləyərkən tanış oldum,o, vaxta qədər onunla ciddi bir tanışlığım yox idi. Bir dəfə redaksiyaya getdim. Qəzetin redaksiyası "28 May" metrosunun yaxınlığındaböyük bir binanın birinci mərtəbəsində yerləşirdi.

İçəri keçib salam verdim, əl uzatdı, görüşdük.

- Tanış olaq, -dedi, - Tofiq Nurəli, qəzetin redaktoru . O, kağızlara başı qarışan əməkdaşa tərəf üzünü çevirib:
- Sizin yerliniz, qəzetin ağırlığını çiyinlərində daşıyan şair Allahverdi Məmmədlidir. Siz söhbət edin, məni isə üzürlü hesab edin, yığıncağa tələsirəm.

Hə, deməli, Allahverdi Məmmədli. Allahın şairlik istedadı verdiyi, öz sözünü demək üçün ilhamdan qanad taxan publisistlərdən heç də geridə qalmayan, iti qələm sahibi, şeirlərindəki fikri hamının danışdığı, lakin bədii yazılarda hər kəsin işlətmədiyi tərzdə oxucuya çatdıran, adamın ürəyinə misraları yağ kimi yayılan şairlə üzbəüz oturmuşam. Qısa söhbətdən sonra tez ünsiyyət tapdıq, bir-birimizə isinişdik.

-Nahar fasiləsinə çıxmağa hələ tezdir,-dedi Allahverdi.- Qəzetimizin ötən saylarını nəzərdən keçir ki, darıxmayasan. Qəzeti çapa hazırlayırıq, vaxtımız məhduddur. Mən yazıları redaktə edib mətbəəyə göndərməliyəm.

Əlindəki redaktə işini qutardı, əməkdaşlara hansısa tapşırıqlarını verdi və siqaretin kötüyünü külqabıya basdı:

-Getdik, -dedi.-Həm çay içərik, həm də yaxınlıqdakı kafedə qəlyanaltı edərik.Lerikdən, adamlarından danışa, görüm nə var, nə yox...

Elə də etdik. Söhbətimiz ordan-burdan oldu. Allahverdi nəsə düşünüb, mənə dedi:

- İmzana bələdəm. Təkcə "Bolluq uğrunda" qəzetində yox, respublika mətbuatında da görünürsən,problemlər qaldırırsan.Jurnalist gərək nöqsanlara biganə qalmasın, qaranlıqda işıq saçsın, ictimai rəyi düz istiqamətə yönəltsin.

Allahverdi Məmmədlidən xoş duyğularla ayrıldım, onunla tez-tez görüşəcəyimə söz verdim. Bu çəlimsiz qələmqaş siqareti, mənalı sözü özünə sirdaş seçən eloğlumda olan tükənməz enerjiyə, istedada, bacarığa, sədaqətli dostluğuna qibtə edirdim. Allah ondan insana xas olan heç nə əsirgəməmişdi...

"Sönməyən ocaq" kitabında Allahverdi Məmmədliyə həsr olunmuş "Ürəyi gözlərindən oxunan adam" oçerkindən bəlli oldu ki, onun ilk şeiri "Məhsul" qəzetində çap olunmuş, texnikumda tələbə olarkən "Leninçi" qəzetində yazıları dərc edilmiş, 1967-ci ildən etibarən "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan", "Ulduz" kimi qəzet və jurnallarda dərc edilmiş.Şair "Ürəyimdə açan çiçək", "Haçandır görüşmürük", "Bizi ayrılıq gözləyir" şeirlər və poemalar toplularının, "Mərdlərə körpü oldum" povestinin müəllifidir. Şeirləri rus, ukrayna, gürcü, moldav, bolqar, tuva dillərinə tərcümə olunub, onun yaradıcılığı ədəbi tənqidin də diqqətini cəlb etmiş, əsərləri barədə qəzet və jurnallarda məqalələir,resenziyaları çap olunmuşdur. Həmçinin, iyirmidən çox şeir, nəsr və publisistik kitabın redaktoru olmuşdur.

Söz ki, redaktə etdiyi kitablardan düşdü, mən Allahverdinin Lerikli Qarabağ müharibəsinin şəhidləri barədə yazdığım "Ölsəm, inanma" kitabımın ərsəyə gəlməsi üçün çəkdiyi narahatçılıqdan, zəhmətdən söz açmaq istərdim. 1996-cı ilin mart ayının sonları olardı. Lerikli şəhidlər barədə yazılarımı (onların hər biri esse, mənsur şeir janrındadır) qovluğa yığıb üz tutdum Bakıya, Kitabı nəşr etməyi vəd etmiş imkanlı iş adamı fikrindən döndü.



Çox pərişan oldum. Lakin bu uzun sürmədi. Bilmirəm, Allahverdini Allah haradan rastıma çıxardı. Məni dinlədikdən sonra o siqareti- siqaretə caladı.

- Bəs nə etmək fikrindəsən?-soruşdu-İndiki zəmanədə asan heç nə yoxdur, ancaq ürəyini sıxma, Allaha təvəkkül...-dedi.

-Gedək Miri Qənbərovla görüşək,-dedim- Çox diqqətcil və yurdsevər, xeyriyyəçi, əliaçıq adamdır, vəzifə sahibidir. O kitabın nəşrini öz boynuna götürməkdən imtina etməz,-şəstlə, bir qədər də inamla dedim,-vaxtın varsa gedək onun iqamətgahına. Deyəsən Allahverdi müəllimin də ürəyinə yaxşılığa doğru nəsə dammışdı, onun gözlərində sevinc qığılcımları parladı...

...Və Miri Qənbərov bizi çox mehribanlıqla qarşıladı. Şəhidlər barədə kitabın çapına sponsorluq etməyi öz üzərinə götürdü. Allahverdi müəllimin yorğunluğundan əsər-əlamət qalmamışdı. O, "Şirvannəşr"in baş redaktoru Qəşəm İsabəyli ilə danışdı. Beləliklə də "Ölsəm, inanma" kitabı-şəhidləri haqqında vətən sevgisindən,qan-qadadan söz açan, lakin qürur yaradan bir kitab-canını Vətən yolunda fəda etmiş oğullara həsr edilmiş elegiyalar işıq üzü gördü.

Allahverdi Məmmədli kitaba öz söz əvəzində yazırdı: "İndi bir əlcə kağızın bir ətək puldan başa olan vaxtıdır və belə bir vaxtda dövlət hesabına kitab çıxarmaq adamın dünyaya ikinci dəfə gəlməsi kimi mümkün bir şeydir... Başqa kitablar bir yana, yurdu yaşatmaq üçün can verən oğulların adına bağlanmış sahibsiz-simsarsız müəlliflərinə quru "sağ ol"lardan savayı heç nə, heç nə vəd etməyən kitablara da güzəşt-filan bilmdr bu bazar. Halbuki, nəsə bir insaf meyarı olmalı, şəhidlərə həsr olunmuş kitablar bəlkə də pulsuz çap olunmalıydı. Axı, bu gün sənət əsərindən daha çox şəhid soydaşlarımızın xatirəsi yad olunan sənədli əsərlərə ciddi ehtiyac var...

Elə ki, sponsor axtarışı məqamı yetmişdi, ilk öncə gözümüzün önünə gətirdiyimiz yeganə güman yeri Miri Qənbərov oldu..."

Kitab çapa gedən ərəfədə arabir Allahverdi müəllimlə görüşərkən dilim dinc durmurdu. "Daha nə yazmısan kitabda?!-deyə soruşurdum. O, deyirdi:

-Kitab çap olunandan sonra görərsən.

Doğrusu, fikirləşirdim görəsən o nə yazacaq. Adətən son sözü müxtəlif və qısa yazılar, vəssalam. Daha bilmirdim ki, Allahverdinin son söz əvəzi güclü publisist qələmilə yazılmış bir essedir. Bu esseni dönə-dönə oxumuşam və mənim üçün indi də qiymətlidir. Başqa yazılardan fərqli olaraq layiq olan barədə yazanda ruhən yazırdı, xəsislik eləmirdi.

Kitab aprel ayında Allahverdi Məmmədlinin redaktorluğu ilə 2000 tirajla nəşr olundu. "Ulduz" jurnalının rəssamı Ədalət cildə yaxşı şəkillər çəkmişdi. Kitaba son söz əvəzində Allahverdi Məmmədli yanğı ilə şəhid İsmayıl Yaqubovun qibtəediləcək ölümündən təsirlənərək yazırdı: "Bu şahanə ölüm düşmən özü də həsəd aparıb, qibtə edib və əgər həqiqətən əli silah tutan oğludursa, o namərd özü də belə bir uca ölüm arzulayıb özünə. Buna mənim heç bir şübhəm-filanım yoxdur!"

Yazısında Allahverdi müəlim məni lap utandırdı, lakin əsl şair, yazıçı sözünü dedi: "İndi ki, söhbət cəbr-cəfadan, qəhrəmanlıqdan gedir, mən bu kitabın müəllifini də adsız qəhrəmanlar sırasına yazardım.

İdris Şükürlü qəhrəmanlarının nəinki doğulduqları, boya-başa yetdikləri yerləri, bir çoxunun döyüşdüyü dağları-dərələri, qoruqları, kəndləri-qəsəbələri də qarış-qarış gəzib. Bir növ qəhrəmanlarının yarımçıq qalmış ömür yollarını mənzil başına çatydırmaq istəyib".

Allahverdi Məmmədli kimi canıyanan, diqqətcil, yurdsevər, dost qədri bilən, sözü ilə işi, arzusu ilə əməli bir olan bütöv qəlb sahiblərinin axtarışındayam.Ancaq mənə az rast gəlib.

Onun ömür yolu qısa oldu, lakin yaddaqalan oldu. Ömrün dəyəri çox yaşamaqda deyil,dəyərli ömür yaşamaqdadır. Allahverdi Məmmədli "Biziayrılıq gözləyir" deməklə ömrün vəfasızlığını, yarımçıq qalacağını hiss etmişdi, duymuşdu, poeziya dili ilə əks etdirmişdi:

**Gedək şəklimizi çəkdirək, dünya,**
**Dünyanın işini nə bilmək olar?-**

**deyən şair çoxlu kövrək misralar, şeirlər, lövhələr apardı özü ilə.**

**Allahverdisiz dünyada adam özünü tənha hiss edir, qəribsəyir...**

**Onun əsərləri tədqiqat mövzusudur, cənab tədqiqatçı!**

**Bəs sən nəyi gözləyirsən?**